**Azərbaycan Respublikası Auditorlar**

**Palatasının sədri**

**cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim!**

Azərbaycan Respublikası Auditorlar Palatasının yaranmasının 30 illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi səmimi qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə müstəqilliyin ilk illərində ölkəmizdə auditor xidmətlərinin təşkili sahəsində qanunvericiliyin və hüquqi bazanın yaradılmasına başlanılmış, 1994-cü ilin sentyabr ayında “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, 1995-ci ildə “Auditorlar Palatası haqqında” Əsasnamə təsdiq edilmiş və 1996-cı ilin aprel ayında Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyəti təmin edilmişdir.

Müstəqil maliyyə nəzarəti orqanı olan Auditorlar Palatası ötən 30 il ərzində ölkədə audit xidmətlərinin inkişafı məqsədilə normativ hüquqi aktların hazırlanması, peşə standartlarının yaradılması və təkmilləşdirilməsi istiqamətində böyük işlər görmüşdür.

Auditorlar Palatası Sizin rəhbərliyiniz altında hər zaman yüksək peşəkarlığa əsaslanan məqsədyönlü fəaliyyəti ilə seçilmiş, dövlətin, təsərrüfat subyektlərinin və auditorların mənafelərinin layiqincə müdafiəsini təmin etmişdir. Eyni zamanda, Palata beynəlxalq və regional peşə qurumlarında, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası kimi nüfuzlu bir təşkilatda ölkəmizi layiqincə təmsil etməkdədir.

Dövlətimizin başçısı cənab Prezident İlham Əliyevin kollektivinizə ünvanladığı müraciətdə vurğulandığı kimi, Palatanın fəaliyyəti dövründə ölkədə beynəlxalq audit standartlarının tətbiqi reallaşdırılmış, daxili audit xidməti korporativ idarəetmə sisteminin ayrılmaz elementinə çevrilmişdir.

Ümidvarıq ki, Sizin rəhbərliyinizlə Auditorlar Palatasının məqsədyönlü fəaliyyəti bundan sonra da öölkəmizdə müstəqillauditin inkişafına, maliyyə intizamının və şəffaflığın təmineedilməsinə böyük töhfələr verəcəkdir.

**Hömətli Vahid müəllimi**

Azərbaycan Respublikası Auditorlar Palatasının yaranmasının 30 illik yubileyi münasibətilə Sizi və Palatanın kollektivini bir daha ürəkdən təbrik edir, Sizə möhkəm

oxmsağlığı, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında suveren Azərbaycanın inkişafı naminə şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

**Azərbaycan Respublikasının**

**İpoteka və Kredit Zəmanət Fondunun**

**İdarə Heyətinin sədri** **Fəxri Kazımov**